# Ağaoğlu Danışıqlar və Müqavilə Tərtibi Müsabiqəsi

# 2025

# QAYDALAR

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **MƏHKƏMƏ MÜSABİQƏ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: bsumootcourtsociety.org

E-poçt: info@bsumootcourtsociety.org

# MÜNDƏRİCAT

**Müsabiqə haqqında qısa məlumat** .......... 2

**1. Müsabiqənin təşkili** .......... 3

**2. Müsabiqədə iştirak** .......... 4

**3. Müsabiqənin mərhələləri** .......... 5

**4. Seçim mərhələsi** .......... 5

**5. Müqavilə tərtibi mərhələsi** .......... 6

**6. Qiymətləndirmə və sıralama** .......... 9

**7. Cəzalar** .......... 12

**8. Nominasiyalar** .......... 13

**Əlavə 1. İlkin seçim mərhələsi** .......... 14

# Müsabiqə haqqında qısa məlumat

Ağaoğlu Danışıqlar və Müqavilə Tərtibi Müsabiqəsi (bundan sonra – Müsabiqə; ingiliscə: *Aghaoghlu Negotiation and Contract Drafting Competition (ANCDC)*) türk dünyasının ilk qadın vəkili Sürəyya xanım Ağaoğlunun xatirəsinə həsr olunmuşdur. Müsabiqənin əsas məqsədi tələbələrin danışıqlar aparmaq, təmsilçilik və müqavilə hazırlamaq bacarıqlarını inkişaf etdirməkdir. Müsabiqədə iştirak etməklə tələbələr real iş mühitinə bənzər şəraitdə müqavilənin necə hazırlandığını və bunun üçün danışıqların necə aparıldığını təcrübədən keçirmək imkanı əldə edəcəklər.

Müsabiqə aşağıdakı mərhələlərdən ibarətdir:

1. Seçim;
2. Müqavilə tərtibi.

**Seçim mərhələsi –** Mərhələ bir danışıq sessiyasından ibarətdir. Burada komandalar Müsabiqə İşinə əsasən, müqavilənin müvafiq tərəflərini təmsil etməklə danışıqlar aparırlar. *Məsələn: Alqı-satqı müqaviləsi üzrə komandalardan biri alıcı, digəri isə satıcı tərəfi təmsil edir.* Hakimlərin qiymətləndirmələrinə əsasən müqavilənin hər bir tərəfi üzrə ən yüksək bal toplamış 5 komanda, ümumilikdə isə 10 komanda növbəti mərhələyə keçir.

**Müqavilə tərtibi mərhələsi –** Müqavilə tərtibi mərhələsinə keçmiş 10 komandadan 5 komanda cütü yaradılır. Əvvəlki mərhələdə müqavilənin müvafiq tərəfini təmsil edən komandalar bu mərhələdə artıq müqavilənin digər tərəfini təmsil edirlər. Müqavilə tərtibi mərhələsi iki hissədən ibarətdir: a) Danışıqlar; b) Müqavilənin hazırlanması.

a) ***Danışıqlar*** – Komanda cütünü təşkil edən komandalar aralarında bağlanacaq müqavilənin müddəalarını və Müsabiqə İşində əks olunmuş digər məsələləri müzakirə edərək qarşılıqlı razılıq əldə etməyə çalışırlar.

b) ***Müqavilənin hazırlanması*** – Danışıqlar hissəsi bitdikdən sonra komanda cütü vahid Müqavilə hazırlamağa başlayır. Kazusda əksini tapmış bütün məsələlər Müqavilədə tənzimlənməlidir. Danışıqlar hissəsindən sonra komanda cütünü təşkil edən komandalar Müqaviləni hazırlamaq üçün əlavə görüşlər keçirməkdə sərbəstdirlər. Sonda cütün hazırladığı vahid Müqavilə qiymətləndirilir və Müqavilənin balı komanda cütünü təşkil edən hər bir komandanın fərdi balı hesab olunur.

   Əlavə olaraq, bu mərhələdə hər bir komanda Müqavilədə təmsil etdiyi tərəfin maraqlarını necə təmin etdiyini əks etdirən Mövqe Sənədi hazırlayır. Burada komanda cütünü təşkil edən hər bir komanda Müsabiqə İşində göstərilmiş müştərilərin göstərişlərinə necə əməl etdiyini, bunun əsasında Müqaviləni necə tərtib etdiyini və digər məsələləri əsaslandırır.

# 1. Müsabiqənin təşkili

**1.1. Təşkilatçı.** Müsabiqənin təşkilatçısı BDU Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Məhkəmə Müsabiqə Cəmiyyətidir (bundan sonra – Cəmiyyət). Cəmiyyətin Baş Koordinatoru Müsabiqədə idarəçiliyi edən şəxsdir. Baş Koordinatorun rəhbərliyi altında fəaliyyət göstərən koordinatorlar Müsabiqədə təşkilatçılığı həyata keçirirlər.

**1.2. Koordinator.** Cəmiyyətin Baş Koordinatoru tərəfindən komandalarla əlaqəni təmin etmək məqsədilə hər bir komandaya koordinator təyin edilir. Koordinator komanda nümayəndəsi vasitəsilə ona ünvanlanan suallara cavab verir və komandaları lazımi məlumatlarla təmin edir. Komanda həmçinin Qaydaların izahı üçün koordinatora müraciət edə bilər. Koordinatora Müsabiqə İşindəki faktlar, hüquqi məsələlər və ya tərəflərin mövqeyi üzrə həlledici məqamlara dair suallar ünvanlana bilməz.

**1.3. Mübahisələrin həlli.** Təşkilatçı Qaydaların tətbiqi ilə bağlı mübahisələri həll edir, Müsabiqə gedişində meydana çıxan və Qaydalarla tənzimlənməyən məsələlər barədə qərar verir. Təşkilatçı bu məsələlər üzrə yekun instansiyadır. Komandalar arasında yaranan digər məsələlər üzrə və ya komandalar arasındakı mübahisələrdə vasitəçilik etməsi üçün koordinatorlara müraciət edilə bilməz.

**1.4. Müsabiqə İşi.** Təşkilatçı Müsabiqə Təqvimində (bundan sonra – Təqvim) göstərilən tarixdə Müsabiqə İşini Müsabiqə veb-saytında (ancdc.bsumootcourtsociety.org) yerləşdirir. Müsabiqə İşi əsas faktlar, komandaların Müqavilədə əks etdirməli olduqları məsələlər və onlarla bağlı konfidensial məlumatları ehtiva edir. Müqavilə tərtibi mərhələsində iştirak hüququ qazanan komandalara Müsabiqə İşindəki müştərilərlə bağlı faktları əks etdirən konfidensial məlumatlar təqdim olunur. Bu məlumatlar hər bir komandaya təmsil etdiyi mövqeyə uyğun olaraq verilir və qarşı tərəflə paylaşmaq qadağandır. Komandalar Müsabiqə İşində göstərilən faktları təhrif edə və ya yeni faktlar əlavə edə bilməzlər.

**1.5. Müsabiqə materiallarına dəyişiklik.** Müsabiqənin təşkili ilə bağlı materiallar – Qaydalar, Təqvim, Müsabiqə İşi və s. yalnız Təşkilatçı tərəfindən dəyişdirildikdə etibarlıdır. Təşkilatçı materialların ən son versiyasını Müsabiqə veb-saytında yeniləyir və bu barədə iştirakçılara müvafiq məlumat verir.

**1.6. Hakimlər.** Təşkilatçı hüquqşünaslar arasından Müsabiqə hakimlərini təyin edir. Hakimlər şifahi və yazılı təqdimatlar barədə Müsabiqə məqsədlərinə uyğun olaraq qiymətlər və qərarlar verirlər. Hakimlərin verdiyi qiymət və qərarlar qətidir, mübahisələndirilə bilməz.

## 2. Müsabiqədə iştirak

**2.1. Uyğunluq.** Bakalavr təhsili alan 2, 3, 4-cü kurs hüquq tələbələrindən təşkil olunmuş komandalar Müsabiqədə iştirak edə bilərlər.

**2.2. Say.** Hər bir komanda 2 üzvdən ibarət olmalı və hər bir üzv qeydiyyat zamanı bəyan edilməlidir. Üzvlərdən biri komandanı tərk etdikdə digər üzvün Müsabiqədə iştirakı yalnız 2.6-cı maddənin şərtlərinə əməl olunduğu halda mümkündür.

**2.3. Qeydiyyat.** Müsabiqədə iştirak etmək istəyən komandalar Müsabiqə veb-saytında qeydiyyatdan keçməlidirlər. Müsabiqə 2 (iki) komandanın birgə fəaliyyətinə əsaslandığından cüt sayda komandanın iştirakına icazə verilir. Qeydiyyatdan keçmiş komandaların ümumi sayı tək olduqda sonuncu komandanın qeydiyyatı təsdiq edilmir və həmin komandaya bu barədə e-poçt vasitəsilə məlumat verilir. *Məsələn: Qeydiyyatdan 25 komanda keçdiyi halda, 25-ci komandanın iştirakı təsdiqlənmir.* Təşkilatçı qeydiyyatdan keçən komanda sayının çoxluğunu nəzərə almaqla ilkin seçim mərhələsi həyata keçirə bilər. (Əlavə 1)

**2.4. Nümayəndə.** Hər bir komanda Təşkilatçı ilə kommunikasiyalarda komandanı təmsil etmək üçün üzvlərindən birini nümayəndə kimi təyin etməlidir. Qeydiyyat zamanı nümayəndənin işlək mobil əlaqə nömrəsi və e-poçt ünvanı təqdim olunmalıdır.

**2.5. Komanda nömrəsi.** Qeydiyyatdan keçdikdən sonra hər bir komanda qeydiyyat sırasına uyğun olaraq nömrələnir və bu barədə Təşkilatçı tərəfindən komandalara məlumat verilir. Müsabiqə gedişatında komanda göstəricisi kimi bu nömrədən istifadə olunur.

**2.6. Komanda üzvünün dəyişdirilməsi.** Təqvimdə komanda üzvünün dəyişdirilməsi üçün son gün (imtina/dəyişdirilmə üçün son gün) müəyyənləşdirilir. Bu barədə məlumat Təşkilatçıya e-poçt vasitəsilə verilir. Məlumat imtina/dəyişdirilmə üçün son gündən əvvəl verildiyi təqdirdə, dəyişdirilmə həyata keçirilə bilər.

**2.7. Müsabiqədə iştirakdan imtina.** Təqvimdə komandanın Müsabiqədə iştirakdan imtina etməsi barədə məlumat verməsi üçün son gün (imtina/dəyişdirilmə üçün son gün) müəyyənləşdirilir. Bu barədə məlumat Təşkilatçıya e-poçt vasitəsilə verilir.

**2.8. Müsabiqədə iştirak etməmə.** Əgər komanda Müqavilə tərtibi mərhələsində iştirakdan imtina edərsə, bu zaman cüt təşkil etdiyi digər komandanın da Müsabiqəni tərk etməsinə səbəb olur. Eyni zamanda imtina və dəyişdirilmə üçün son gündən sonra Müsabiqədə iştirakdan imtina edən komanda üzvlərinin Təşkilatçının digər Müsabiqələrində iştirakı qadağan olunur.

**2.9. Vicdanlılıq prinsipi.** Hər bir iştirakçıdan danışıq sessiyalarında və müqavilə tərtibində vicdanlılıq prinsipinə əməl etmələri tələb olunur. Bu prinsipə əməl olunmadığı aşkar olunarsa, bu pozuntu qiymətləndirmə zamanı nəzərə alınır.

**2.10. Xaricdən dəstək.** Müsabiqədə iştirak komanda işidir. Heç bir komanda üzvü Müsabiqənin mərhələləri ilə bağlı öz komanda üzvü olmayan hər hansı şəxslə məsləhətləşə, kömək ala və təklif qəbul edə bilməz. Komandalar hər bir mərhələ üzrə arqumentlərini yalnız özləri araşdıraraq yazmalı, redaktə etməli və formalaşdırmalıdırlar.

## 3. Müsabiqənin mərhələləri

**3.1. Mərhələlər.** Müsabiqə 2 əsas mərhələdən ibarətdir:

1. Seçim mərhələsi;
2. Müqavilə tərtibi mərhələsi.

**3.1.1. Seçim mərhələsi.** Bu mərhələ müsabiqənin ilkin mərhələsidir. Komandalar bir danışıq sessiyasında iştirak edərək müqavilənin tərtib olunmasına dair razılığa gəlmək üçün danışıqlar aparır və bu danışıqlar əsasında qiymətləndirilirlər.

**3.1.2. Müqavilə tərtibi mərhələsi.** Seçim mərhələsinin nəticələri əsasında müəyyən edilən komandalar bu mərhələdə iştirak hüququ qazanırlar. Burada komandalar cütlər halında birləşdirilir. Mərhələ boyu komandaların fəaliyyəti komanda cütünü təşkil edən komandaların birgə fəaliyyətinə əsaslanır. Mərhələ iki hissədən ibarətdir: ***A) Danışıqlar*** və ***B) Müqavilənin hazırlanması***. Danışıqlar hissəsində komandalar qarşılıqlı müzakirə yolu ilə əsas və digər əlaqəli məsələlər üzrə razılıq əldə etməyə çalışır, Müqavilənin hazırlanması hissəsində isə birgə hazırlanmış Müqavilə və ayrılıqda tərtib etdikləri Mövqe Sənədini təqdim edirlər.

## 4. Seçim mərhələsi

**4.1. Mərhələnin tərkibi.** Seçim mərhələsi 1 (bir) danışıq sessiyasından ibarətdir.

**4.2. Danışıq sessiyası.** Danışıq sessiyasında komandalar Müsabiqə İşində əksini tapmış məsələləri öz mövqelərinə uyğun şəkildə müzakirə edirlər. Sessiyada komandanın hər iki üzvü çıxış etməlidir.

**4.3. Danışıq sessiyasının tərəfləri.** Komandalar müqavilənin müvafiq tərəflərini təmsil edirlər. *Məsələn: Alqı-satqı müqaviləsi üzrə komanda 20 (K20) alıcı tərəfi, komanda 11 (K11) isə satıcı tərəfi təmsil edir.* Təşkilatçı komanda sayı və mövcud vəziyyəti nəzərə alaraq, komandanın əvvəlki mövqeyini eyni saxlamaqla *(iştirak etdiyi sessiyada alıcı tərəfini təmsil etmişdirsə, yenidən alıcı tərəfi təmsil etməklə)* başqa komanda qarşısında ikinci dəfə çıxış etməsi barədə qərar qəbul edə bilər.

**4.4. Danışıq sessiyasının müddəti.** Sessiya ümumilikdə *40 (qırx)* dəqiqə olmaqla komandaların qarşılıqlı müzakirəsindən ibarətdir. Bu müddət ərzində komandalar öz mövqelərini izah edir, qarşı tərəfin irəli sürdüyü arqumentlərə münasibət bildirir və müvafiq məsələlər üzrə razılığa gəlməyə çalışırlar. Təşkilatçı sessiya ərzində istifadə edilən vaxta nəzarət edir və *30, 20, 10, 5, 3, 1, Dayan* yazılı çap olunmuş kağızlarla komandalara qalan vaxt barədə məlumat verir.

**4.5. Qarşılaşmalar.** Seçim mərhələsində Təşkilatçı iştirakçı komandaya danışıqlar aparacağı digər komanda, təmsil edəcəyi mövqe, habelə sessiyanın vaxtı və yeri barədə məlumat verir.

**4.6. Kommunikasiya.** Danışıq sessiyaları zamanı komanda digər komandanın nitqini yarıda kəsməməli və digər etik davranış qaydalarını gözləməlidir. Komanda üzvləri arasındakı kommunikasiya digər komandanın nitqinə mane olmamalı və müvafiq məsələlərlə bağlı qeydlər yalnız nitq tamamlanana qədər kağız üzərində aparılmalıdır. Sessiya boyunca saat istisna olmaqla, digər elektron vasitələrdən, habelə elektron saatlardan istifadə qadağandır.

**4.7. Hakim.** Danışıq sessiyasında 3 (üç) hakim iştirak edir. Əgər fövqəladə vəziyyət yaranarsa, sessiya iki hakimlə davam etdirilə bilər. Hakimlər sessiya boyu komandaları müşahidə edir və ehtiyac olmadıqca sessiyaya müdaxilə etmirlər.

**4.8. Müqavilə tərtibi mərhələsinə keçid.** Seçim mərhələsində komandaların balları hər iki mövqe üzrə ayrılıqda sıralanır. Bu zaman hər iki mövqe üzrə ən yüksək nəticə göstərən ilk 5 komanda, ümumilikdə isə 10 komanda Müqavilə tərtibi mərhələsinə keçid edir. *Məsələn: Alıcı mövqeyini təmsil edən K16, K3, K9, K6, K5, satıcı mövqeyini təmsil edən K18, K22, K27, K14, K23 müvafiq mövqelər üzrə ilk beşlikdə qərarlaşaraq növbəti mərhələdə iştirak edirlər.*

## 5. Müqavilə tərtibi mərhələsi

Müqavilə tərtibi mərhələsi 2 hissədən ibarətdir: 1. Danışıqlar və 2. Müqavilənin hazırlanması.

### 5.1. Danışıqlar hissəsi

**5.1.1. Hissənin tərkibi.** Danışıqlar hissəsi 1 (bir) danışıq sessiyasından ibarətdir.

**5.1.2. İştirakçılar.** Seçim mərhələsində təmsil etdiyi mövqe üzrə ən yüksək nəticə göstərən ilk 5 komanda, ümumilikdə isə 10 komanda Müqavilə tərtibi mərhələsinin Danışıqlar hissəsində iştirak edir.

**5.1.3. Komanda cütləri**. Təşkilatçı bu hissədən etibarən komandaları cütlər halında birləşdirir. Bir komanda cütü iki komandadan ibarət olmaqla ümumilikdə 5 komanda cütü formalaşdırılır. Komanda cütünü təşkil edən komandalar Təşkilatçı tərəfindən müəyyən olunur. Bu mərhələdən etibarən komanda cütünü təşkil edən komandalar birgə Müqavilə hazırlamaq istiqamətində danışıqlar aparırlar. *Məsələn: Bu mərhələdən etibarən satıcı mövqeyini təmsil edəcək K16 ilə alıcı mövqeyini təmsil edəcək K18 birləşərək həm Danışıq, həm də Müqavilənin hazırlanması hissəsində bir komanda cütü olaraq iştirak edəcəklər.*

**5.1.4. Danışıq sessiyası.** Müqavilə tərtibi mərhələsinin danışıq sessiyasında komanda cütünün əsas məqsədi Müsabiqə İşində əksini tapan məsələlərin Müqavilədə necə tənzimlənəcəyi barədə razılığa gəlməkdir. Komandalar bir danışıq sessiyasında

iştirak edirlər. Danışıqlar sessiyasının ümumi formatı ilə bağlı digər tələblər Seçim mərhələsinin danışıq sessiyası ilə eynidir.

**5.1.5. Danışıq sessiyasının tərəfləri.** Komandalar Müqavilə tərtibi mərhələsində əvvəlki mərhələdə tutmuş olduqları mövqenin əksini təmsil edirlər. *Məsələn: Seçim mərhələsində alıcı mövqeyini təmsil edən K16 bu mərhələdən etibarən satıcı mövqeyini təmsil edir.*

**5.1.6. Danışıq sessiyasının müddəti.** Sessiya ümumilikdə 40 (qırx) dəqiqədən ibarətdir. Müsabiqə İşində əksini tapmış əsas məsələlərin danışıq sessiyasında müzakirəsi mütləqdir.

**5.1.7. Komanda cütü kabinetləri**. Müqavilə tərtibi mərhələsində bir araya gətirilən komandalar üçün Müsabiqə veb-saytında komanda cütü kabinetləri yaradılır. Bu kabinet vasitəsilə komandalar cüt təşkil etdikləri digər komanda, həmin komandanın əlaqə məlumatları, təmsil edəcəkləri mövqe, eləcə də sessiya vaxtı və yeri barədə məlumat əldə edirlər.

## 5.2. Müqavilənin hazırlanması hissəsi

**5.2.1. Hissənin məzmunu.** Müqavilənin hazırlanması hissəsində komanda cütünün əsas məqsədi Danışıqlar hissəsində müzakirə etdikləri və digər əlaqəli məsələlər əsasında vahid Müqavilə hazırlamaqdır.

**5.2.2. İştirakçılar.** Müqavilənin hazırlanması hissəsinin iştirakçıları Danışıqlar hissəsində formalaşdırılmış komanda cütləridir.

**5.2.3. İştirak tələbi.** Komanda cütünün tərkibinə daxil olan komandaların Danışıqlar hissəsində tutmuş olduqları mövqelər dəyişmir. Komandalar bu hissədə birgə Müqavilə hazırlayırlar. *Məsələn: Komanda 18 & 16 cütünün Danışıqlar hissəsində komanda 18 alıcı, 16 satıcı mövqeyində iştirak etmişdirsə, Müqavilənin hazırlanması hissəsində də bu cür davam edəcəklər.*

**5.2.4. Müqavilə.** Komanda cütünün birgə tərtib etdiyi sənəddir. Müsabiqə İşində əks olunması zəruri olan bütün məsələlər Müqavilədə öz əksini tapmalıdır. Komandalar Müqavilədə əks etdirilməsini uyğun hesab etdikləri digər məsələləri qeyd etməkdə sərbəstdirlər.

**5.2.5. Mövqe Sənədi.** Komanda cütünün tərkibinə daxil olan hər bir komandanın ayrılıqda hazırladığı sənəddir. Komandalar burada Müqavilənin təmsil etdikləri tərəfin maraqlarını necə təmin etdiyini əks etdirirlər. Mövqe Sənədi Müsabiqə İşinə və ona əlavə olunmuş konfidensial məlumatlara əsaslanmalıdır.

**5.2.6. Əlavə görüşlər.** Komanda cütləri Danışıqlar hissəsindən sonra əlavə görüşlər keçirməkdə sərbəstdirlər. Onlar bu görüşlərdə danışıq sessiyasında müzakirə etmədikləri digər məsələləri müzakirə edə, habelə Müqavilənin müddəaları ilə bağlı müvafiq dəqiqləşdirmələr apara bilərlər.

**5.2.7. Tərkib.** Müqavilə və Mövqe Sənədi (bundan sonra – Sənədlər) aşağıdakılardan ibarət olmalıdır:

**Müqavilə.**

i. Üz səhifəsi;
ii. Müddəalar.

**Mövqe Sənədi.**

i. Üz səhifəsi;
ii. Müddəaların izahı.

**5.2.8. Üz səhifəsi.** Sənədlərin üz səhifəsi aşağıdakılardan ibarət olmalıdır:

**Müqavilə.**

i. Komanda cütünü təşkil edən komandaların nömrələri və təmsil etdiyi tərəflərin təyinatını göstərən ifadələrin baş hərfindən ibarət qısaltma (18A & 16S);
ii. Təqdim edildiyi tarix.

**Mövqe Sənədi.**

i. Komandanın nömrəsi və təmsil etdiyi tərəfin təyinatını göstərən ifadənin baş hərfindən ibarət qısaltma (18A);
ii. Təqdim edildiyi tarix.

Qeyd: Sənədlərdə komanda üzvlərinin adlarından, həmçinin onların şəxsiyyətinə göndəriş edən ifadələrdən istifadə oluna bilməz.

**5.2.9. Həcm.** Müqavilə maksimum *15,* Mövqe Sənədi isə maksimum *3* səhifədən (üz səhifəsindən əlavə) ibarət olmalıdır.

**5.2.10. Yazı stili.** Sənədlərdə istifadə olunan yazı şrifti *Times New Roman*, ölçüsü *12 (on iki)* olmalıdır. Başlıqlar yazının digər hissələrindən fərqləndirilə bilmək üçün nisbətən böyük ölçülərdə verilə bilər. Abzaslararası məsafə *1 (bir)* olmalıdır.

**5.2.11. Təqdimat tarixi.** Sənədlər Təqvimdə göstərilən tarixə kimi təqdim olunmalıdır (7.5-ci maddə nəzərə alınmaqla). Əks halda komanda cütü Müsabiqədə iştirak hüququndan məhrum olunacaq və 2.8-ci maddə tətbiq olunacaqdır.

**5.2.12. Təqdimat qaydası.** Komandalar Sənədləri *Microsoft Word (*.docx)* formatında komanda cütü kabinetindəki ayrıca bölmələr vasitəsilə təqdim etməlidirlər. Sənədlərin fayl adında tərəflərin komanda nömrəsi və təyinatı əks olunmalıdır. *Məsələn: Müqavilə Komanda 18A & 16S; Mövqe Sənədi Komanda 18A.*

**5.2.13. Təkrar təqdimat.** Sənədlər təqdimat üçün müəyyən olunmuş son tarixə qədər bir neçə dəfə təkrarən təqdim edilə bilər. Təqvimdə müəyyən olunmuş son tarixdən əvvəlki ən son təqdimat Müsabiqə məqsədləri üçün rəsmi olaraq yekun təqdimat kimi qəbul edilir. Komanda cütü son tarixdən sonrakı təqdimatının əsas alınmasını tələb

edərsə, Təşkilatçı müvafiq cəza balını tətbiq etməklə yeni təqdimatı nəzərə alır. Bu halda yalnız bir dəfə təkrar təqdimat imkanı tanınır.

**5.2.14. Sənədlərdən istifadə.** Bütün göndərilən Sənədlər Təşkilatçının səlahiyyətinə keçir. Təşkilatçı Sənədləri Qaydalara uyğunluğu təsdiq etmək üçün yoxlayır, Qaydalar pozulduğu halda, Sənədlərə cəza balını tətbiq edir və onları qiymətləndirmə üçün hakimlərə göndərir. O, Sənədləri öz diskresion səlahiyyəti daxilində sonrakı illərdə başqa iştirakçılar tərəfindən nümunə kimi oxunula bilməsi də daxil olmaqla, müxtəlif qanuni məqsədlər üçün istifadə edə bilər.

# 6. Qiymətləndirmə və sıralama

**6.1. Seçim mərhələsi üzrə qiymətləndirmə.** Seçim mərhələsinin danışıq sessiyası 3 (üç) hakim tərəfindən qiymətləndirilir. Müqavilənin müvafiq tərəfini təmsil edən komandanın bir hakimdən ala biləcəyi bal ümumi bal minimum 50, maksimum 100-dür. Fövqəladə hal yarandığı təqdirdə, sessiya 2 (iki) hakimlə davam etdirilərsə, üçüncü hakimin balı komandanın digər iki hakimdən əldə etdiyi ümumi balın ədədi ortası hesab olunur. Komandanın topladığı balların cəmi mərhələ üzrə yekun bal sayılır. Məsələn:

| Danışıq sessiyası № | Komanda | I Hakim | II Hakim | III Hakim | Sessiya balı |
|---|---|---|---|---|---|
| III | K18 (alıcı) | 82 | 84 | 84 | 250 |
| | K16 (satıcı) | 87 | 85 | 86 | 258 |
| VIII | K27 (alıcı) | 78 | 75 | 77 | 230 |
| | K9 (satıcı) | 84 | 87 | 93 | 264 |

Nəticələrə əsasən, alıcı mövqeyi üzrə K18 I, K27 II, satıcı mövqeyi üzrə isə K9 I, K16 isə II yeri tutur.

**6.2. Müqavilə tərtibi mərhələsinin <u>Danışıqlar hissəsi</u> üzrə qiymətləndirmə.** Danışıqlar hissəsinin danışıq sessiyası 3 (üç) hakim tərəfindən qiymətləndirilir. Bu mərhələdəki danışıqlar hissəsində komanda cütünü təşkil edən komandanın bir hakimdən ala biləcəyi bal ümumi bal minimum 50, maksimum 100-dür. Fövqəladə hal yarandığı təqdirdə, sessiya 2 (iki) hakimlə davam etdirilərsə, üçüncü hakimin balı komandanın digər iki hakimdən əldə etdiyi ümumi balın ədədi ortası hesab olunur. Komandanın topladığı balların cəmi hissə üzrə yekun bal sayılır. Məsələn:

| Komanda | I Hakim | II Hakim | III Hakim | Ümumi sessiya balı | Komanda cütünün ümumi balı |
|---|---|---|---|---|---|
| K18<br>Alıcı | 78 | 76 | 78 | 232 | 451 |
| K16<br>Satıcı | 71 | 69 | 79 | 219 | |

**6.3. Müqavilə tərtibi mərhələsinin <u>Müqavilənin hazırlanması hissəsi</u> üzrə qiymətləndirmə**. Müqavilənin hazırlanması hissəsində komandaların təqdim etdiyi Müqavilələr 3 (üç) hakim tərəfindən ayrı-ayrılıqda 50-100 bal aralığında qiymətləndirilir. Fövqəladə hal yarandığı təqdirdə, Müqavilə yalnız 2 (iki) hakim tərəfindən qiymətləndirilərsə, üçüncü hakimin balı komandanın digər iki hakimdən əldə etdiyi ümumi balın ədədi ortası hesab olunur. Komandanın topladığı balların cəmi hissə üzrə yekun bal sayılır. Məsələn:

| Komanda | I Hakim | II Hakim | III Hakim | Ümumi bal | Komanda cütünü ümumi balı |
|---|---|---|---|---|---|
| Komanda 18. Satıcı | 79 | 83 | 82 | 244 | 506 |
| Komanda 16. Alıcı | 87 | 86 | 89 | 262 | |

**6.4. Mövqe Sənədinin qiymətləndirilməsi**. Hər bir komandanın Mövqe Sənədi 3 ( üç) hakim tərəfindən ayrı-ayrılıqda 25-50 bal aralığında qiymətləndirilir. Fövqəladə hal yarandığı təqdirdə, Mövqe Sənədi yalnız 2 (iki) hakim tərəfindən qiymətləndirilərsə, üçüncü hakimin balı komandanın digər iki hakimdən əldə etdiyi ümumi balın ədədi ortası hesab olunur. Komandanın topladığı balların cəmi Mövqe Sənədi üzrə yekun bal sayılır. Məsələn:

| Komanda 18 | I Hakim | II Hakim | III Hakim | Ümumi bal |
|---|---|---|---|---|
| | 45 | 40 | 44 | 129 |

**6.5. Müsabiqə nəticələrinin hesablanması.** Komandaların Müsabiqədə nəticələri aşağıdakı qaydada hesablanır:

*Danışıq hissəsinin balı + Müqavilə balı * 2 + Mövqe Sənədinin balı*

Məsələn, Komanda 18-in nəticələri aşağıdakı kimidir:

| Komanda | Danışıqlar hissəsi | Müqavilənin hazırlanması hissəsi | Mövqe Sənədi |
|---|---|---|---|
| K18 | 232 | 244 | 129 |

Belə olan halda K18-in yekun balı aşağıdakı qaydada hesablanacaqdır:

*232 + 244*2 + 129 = 849*

Deməli, K18 Müsabiqəni 849 balla başa vurmuşdur.

**6.6. Qalibiyyət.** Danışıqlar, Müqavilə hazırlanması hissəsi və Mövqe Sənədi üzrə ümumilikdə ən yüksək yekun bal toplamış komanda Müsabiqənin Qalibi hesab olunur. Məsələn:

| Komanda | Danışıqlar hissəsi | Müqavilənin hazırlanması hissəsi | Mövqe Sənədi | Yekun bal |
|---|---|---|---|---|
| K18 Alıcı | 232 | 244*2 = **488** | 129 | 849 |
| K16 Satıcı | 219 | 262*2 = **524** | 147 | 890 |
| K27 Alıcı | 260 | 280*2 = **560** | 115 | 935 |
| K9 Satıcı | 270 | 275*2 = **550** | 120 | 940 |

Komanda 9 ən yüksək nəticəni göstərməklə Müsabiqənin Qalibidir.

**6.6. Sıralamada bərabərlik və ya heç-heçə halı.**

i. Danışıqlar hissəsində komandanın hakimlərdən aldığı ən yüksək balı çıxmaqla, əgər bərabərlik yenə qalsa...

ii. Danışıqlar hissəsində komandanın hakimlərdən aldığı ən aşağı balı çıxmaqla, əgər bərabərlik yenə qalsa...

iii. Hər bir hakim tərəfindən komanda cütlərinə verilən Müqavilə balı üzrə ən yüksək balı çıxmaqla, əgər bərabərlik yenə qalsa...

iv. Hər bir hakim tərəfindən komandanın Mövqe Sənədinə verilən ən yüksək balı çıxmaqla, əgər bərabərlik yenə qalsa...

v. Hər bir hakim tərəfindən komandanın Mövqe Sənədinə verilən ən aşağı balı çıxmaqla müəyyən olunur.

**6.7. Nəticələrin elanı.** Təşkilatçı hər mərhələ üzrə qiymətləndirmə yekunlaşdıqdan sonrakı 24 (iyirmi dörd) saat ərzində qiymətləndirmə nəticələrini komanda kabinetlərinə yerləşdirir. Müsabiqə yekunlaşdıqdan sonrakı 14 (on dörd) gün ərzində Müsabiqənin yekun sıralamaları və nəticələri barədə ətraflı məlumat əldə edilə bilər.

## 7. Cəzalar

**7.1. Danışıq sessiyalarına gecikmə.** Komanda sessiyanın keçiriləcəyi yerə əvvəlcədən məlumat verilmiş tarixdə və saatda gəlmədikdə gecikilən hər 15 (on beş) dəqiqə 5 (beş) balla cəzalandırılır. Bu cəza hər bir hakimin komandaya verdiyi baldan çıxılır.

**7.2. Əlavə vasitələrdən istifadə.** Sessiyada iştirak edən komanda üzvlərinin sessiya ərzində saat istisna olmaqla, digər elektron vasitələrdən, habelə elektron saatlardan istifadəsi qadağandır. Bu cür vasitələrdən istifadəyə görə 5 (beş) bal cəza tətbiq olunur.

**7.3. Konfidensial məlumatların digər şəxslərlə paylaşılması.** Komanda cütünü təşkil edən komandaların konfidensial məlumatları bir-biriləri ilə paylaşdığı aşkarlandıqda hər iki komanda Müsabiqədən kənarlaşdırılır və 2.8-ci maddə tətbiq olunur.

**7.4. Üz səhifəsi məlumatları.** Hər hansı komanda Sənədlərin üz səhifəsi ilə bağlı 5.2.8-ci maddəyə əməl etmədikdə 2 (iki) balla cəzalandırılır. Cəza balı bu hal müşahidə olunan Sənəd(lər) üzrə hər bir hakimin balından çıxılır.

**7.5. Sənədlərin gec təqdimatı.** Hər hansı bir komanda öz Sənədlərini Təqvimdə nəzərdə tutulmuş son tarixdən sonra 5.2.11-ci və 5.2.12-ci maddələrə əməl etmədən təqdim edərsə, həmin tarixdən sonrakı hər 1 (bir) gecikmə günü 5 (beş) balla cəzalandırılır. Cəza balı bu hal müşahidə olunan Sənəd(lər) üzrə hər bir hakimin balından çıxılır. Komanda cütü Sənədləri Təqvimdə müəyyən olunmuş son tarixdən sonrakı 3 (üç) gün ərzində təqdim etməzsə, Müsabiqədən kənarlaşdırılır və 2.8-ci maddə tətbiq olunur.

**7.6. Normadan artıq uzunluq.** Komandalar Sənədlər üzrə Qaydalarda müəyyən olunmuş səhifə sayı limitini keçməyə görə limiti keçən hər səhifə üçün 3 (üç) balla cəzalandırılır. Cəza balı bu hal müşahidə olunan Sənəd(lər) üzrə hər bir hakimin balından çıxılır.

**7.7. Süni intellektdən istifadə.** Aşağıdakılar süni intellektdən istifadənin qaydalarını pozur:

i. Cəmiyyətin Müsabiqə ilə əlaqəli paylaşdığı materiallardan istifadə etməklə süni intellekti öyrətmək;
ii. Süni intellekt vasitəsilə yaradılmış mətni təqdim etmək (sonradan edilən dəyişiklik və ya əlavələr bu halı dəyişdirmir).

Süni intellektdən istifadə həmin sənəd üçün 1-50 bal aralığında cəza ilə nəticələnir. İstifadənin həcmi əhəmiyyətli dərəcədə olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

**7.8. Diskresion cəza.** Peşəkarlığa, etikaya, habelə sessiyada və hakimlərə qərəzli davranış, rəqibləri ədalətsiz üstələmə cəhdləri, hakimlərə kimlik barədə işarə vermək, hakimlərin qiymətləndirmə müzakirəsinə müdaxilə və sair kimi Müsabiqənin gedişatını təhlükəyə salan və Müsabiqənin məqsədlərinə zidd əməllər barədə Təşkilatçı diskresion cəza tətbiq edə bilər.

## 8. Nominasiyalar

Təşkilatçı *"Ağaoğlu Danışıqlar və Müqavilə Tərtibi Müsabiqəsinin Qalibi", "Ən Yaxşı Müqavilə", "Ən Yaxşı Danışıqlar"* və Müsabiqənin məqsədləri üzrə uyğun bildiyi digər nominasiyalar üzrə qalibləri elan edir. Nominasiyalar aşağıdakı qaydada müəyyən olunur:

- **Ağaoğlu Danışıqlar və Müqavilə Tərtibi Müsabiqəsinin Qalibi.** Bu nominasiyaya yalnız bir komanda vəsiqə qazanır. Müqavilə tərtibi mərhələsinin hər iki hissəsi və Mövqe Sənədi üzrə ümumilikdə ən yüksək bal toplamış komanda Müsabiqənin Qalibi hesab olunur.
- **Ən Yaxşı Müqavilə.** Bu nominasiya üzrə Müqavilənin hazırlanması hissəsində ən yüksək bal toplamış komanda cütü qalib hesab olunur.
- **Ən Yaxşı Danışıqlar.** Bu nominasiya üzrə Danışıqlar hissəsində ən yüksək bal toplamış komanda qalib hesab olunur.

## Əlavə 1. İlkin seçim mərhələsi

**1.1. İlkin seçim mərhələsinin formatı.** Müsabiqə Qaydalarının 2.3-cü maddəsinə əsasən, komanda sayını nəzərə alaraq Təşkilatçı ilkin seçim mərhələsi *(preliminary raund)* keçirə bilər. Müsabiqənin ilkin seçim mərhələsi ***müsahibə*** formasında təşkil olunur.

**1.2. Müsahibənin məqsədi.** Müsahibənin məqsədi komandaların danışıqlar prosesində strategiya formalaşdırmaq, qarşı tərəflə əlverişli əməkdaşlıq qurmaq və digər əlaqəli bacarıqlarını qiymətləndirməklə, Müsabiqənin əsas mərhələlərində daha uğurlu komandaların iştirakını təmin etməkdir.

**1.3. Müsahibənin vaxtı.** Hər bir komandanın müsahibə vaxtı barədə məlumat Təşkilatçı tərəfindən e-poçt vasitəsilə verilir.

**1.4. Müsahibənin gedişatı.** Təşkilatçı müsahibə başlamazdan 15 dəqiqə əvvəl komanda nümayəndəsinin əlaqə vasitələri ilə komandalara kazus göndərir. Bu kazus kiçikhəcmli olmaqla, sadəcə müsahibə üçün istifadə olunur. Burada komandanın hər iki üzvü kazusda əksini tapmış bir tərəfi *(məsələn, alıcı tərəfi)* təmsil edir və bu barədə məlumat kazusda göstərilir. Komandalar kazusda əksini tapan məsələlər barədə öz strategiyalarını formalaşdıraraq qarşı tərəflə *(məsələn, satıcı tərəflə)* danışıqlar aparırlar.

**1.5. Müddət.** Hər bir müsahibə 10 dəqiqə olmaqla təşkil edilir. Bu müddətə komandaların özlərini təqdim etməsi, danışıqlar aparması və suallara cavab verməsi daxildir.

**1.6. Münsiflər.** Münsiflər Təşkilatçı tərəfindən hüquqşünaslar və heyət arasından təyin edilir. Münsiflər kazus üzrə müqavilənin digər tərəfini *(məsələn, satıcı tərəfi)* təmsil edirlər və bu tərəfin mənafeyinə uyğun danışıqlar apararaq komandanı qiymətləndirirlər. Eyni zamanda komandaların yumşaq bacarıqlarını yoxlamaq məqsədilə əlavə suallar da ünvanlana bilər.

**1.7. Qiymətləndirmə.** Müsahibə münsif tərəfindən 1-20 balla qiymətləndirilir. Əsas qiymətləndirmə kriteriyaları aşağıdakılardır:

- Komanda işi;
- Biznes etikası və üslub;
- Təşkilatçılıq və vaxtın düzgün idarə edilməsi;
- Danışıq strategiyasının düzgün qurulması və effektiv danışıqlar aparılması.

**1.8. Müsabiqədə iştirak.** Müsahibə üzrə ən yüksək bal toplayan 24 komanda Müsabiqədə iştirak hüququ qazanır.